AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKI

Korporativ Sosial Məsuliyyət KONSEPSİYASI

Korporativ Sosial Məsuliyyət (KSM) nədir?

KSM könüllü fəaliyət olub hədəf qruplarının maraqları naminə sosial-mədəni məsələlərin təşkilatın funksional fəaliyyətinə inteqrasiya edilməsidir.

KSM cəmiyyətin və ətraf mühitin qorunmasına və inkişaf etməsinə yönələn könüllü davranış mədəniyyətidir.

Azərbaycan Mərkəzi Bankında KSM

AMB-də KSM fəaliyyəti onun ölkə iqtisadiyyatında yaratdığı funksional dəyərlərə sosial dəstək istiqamətində sosial-mədəni layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Bu baxımdan 2011-2014-cü illər üçün Strateji Plan çərçivəsində həyata keçirilən layihələrdən biri də AMB-də KSM institutunun yaradılması ilə bağlıdır. Bu, indiyə qədər həyata keçirilən sosial yönümlü fəaliyyətin bundan sonra daha sistemli şəkildə, institusional əsasda davam etdirilməsinə imkan verəcəkdir.

KSM fəaliyyəti fərqli və dayanıqlı müasir kommunikasiya istiqamətlərindən biri kimi təkcə Mərkəzi Bankın deyil, eyni zamanda bütünlükdə bank sektorunun nüfuzunun artırılmasına xidmət edir.

KSM konsepsiyasının yaradılması zamanı nəzərə alınan əsas amillər

KSM konsepsiyamız bankımızın korporativ dəyərlərinə əsaslanmaqla həmin dəyərləri özündə əks etdirir və AMB-nin missiyası, baxışları, dəyərləri ilə sıx bağlıdır. Bu mövqe birmənlı olaraq ifadə edir ki, KSM sadəcə sosial və ya ətraf mühit dəyərlərinin deyil, həmçinin korporativ dəyərin yaradılmasında və inkişafında mühüm amildir.

KSM hədəflərimiz

- *AMB-yə sosial-mədəni dəyərləri rəhbər tutan sosial məsuliyyətli təşkilat imici qazandırmaq*

- *Digər kredit institutları, xüsusilə də banklar arasında KSM mədəniyyətini təbliğ və təşviq etməklə bank sisteminə olan etimadın yüksəldilməsi işində iştirak etmək*

AMB-nin KSM fəaliyyəti

AMB-nin KSM fəaliyyəti əsasən *intellektual yönlü olmaqla* aşağıdakı sosial-mədəni sahələrin inkişafında yaxından iştirakı nəzərdə tutur:

- Təhsil
- Mədəniyyət
- İdman
- Sağlamlıq
- Ekologiya

AMB-nin KSM fəaliyyəti aşağıdakı şəkildə həyata keçirilə bilər:

- intellektual dəstək
- pul şəklində ianə
- qeyri-pul şəklində ianə
- əməkdaşlıq dəstəyi
- digər (qanvermə və s.)

AMB-də korporativ könüllülük

Korporativ könüllülük sosial məsuliyyət elementi olaraq vaxtın maliyyə mükafatı müqabilində deyil, mütəşəkkil qruplar daxilində başqalarının xeyrinə ianə edilməsi prinsipidir.

Bütün qlobal təşkilatlar əməkdaşlarının bilik, bacarıq və fiziki əməyini cəmiyyətə könüllülük prinsipi vasitəsilə ianə etməsini dəstəkləyir və həvəsləndirir.

AMB-də də korporativ könüllülük mədəniyyətinin yaradılması Banka, onun əməkdaşlarına və bütövlükdə cəmiyyətə fayda gətirəcək.

Könüllülüyün faydaları:

- işçi heyətinin funksional aktivliyini, həmçinin mədəni,mənəvi və milli dəyərlərə sadiqliyini artırır;
- təşkilatda komanda işini həvəsləndirir, korporativ imici və nüfuzu möhkəmləndirir;
- idarəetmə bacarıqlarını inkişaf etdirir;
- əməkdaşlar arasında həm şaquli, həm də üfüqi kommunikasiyanı inkişaf etdirir.

AMB-də KSM layihələri çərçivəsində könüllülülk fəaliyyəti qruplar şəklidə təşkil olunur və bunlar **"könüllü qruplar"** adlanır.

"Könüllü qruplar" mütəşəkkil qaydada müvafiq plan əsasında fəaliyyət göstərir.